www.hispaniya.com

# Ümumi Şərtlər və Qaydalar

**Maddə 1: Tərəflər**

**1.1 Təşkilatçı**
Kurs Müdavimi ilə Təminatçı arasında anlaşmanı əldə etmək üçün məsləhət verən və vasitəçi olan şirkət və ya şəxs. Burada: Hispaniya.com

**1.2 Təminatçı**
Dil kursu, təhsil mərkəzi, nəqliyyat şirkəti, səyahət şirkəti və kurs müdaviminin təhsil üçün razılığa gəldiyi digər şirkətlər. Təminatçı, anlaşmanın tətbiqi üçün məsuliyyət daşıyır.

**1.3 Kurs Müdavimi**
a. tələbə
b. Təşkilatçının Təminatçı ilə vasitəçi olduğu şəxs və ya şirkət.

**Maddə 2: Anlaşma və Qeydiyyat**

**2.1** Hispaniya.com xaricdəki dil kursu və bənzəri qurumlarla, tələbə arasında vasitəçi rolunu oynamaqdadır. Hispaniya.com reservasiya və qeydiyyat işlərini təşkil edir. Anlaşmanın hər bir maddəsinin icrası nəzərə alınır və maraqlı tərəflərə aid risk anlaşma ilə çərçivələnmişdir.
**2.2** Əksi vurğulanmadığı müddətcə, bu anlaşma kurs müdaviminin hispaniya.com-a ilkin qeydiyyat ödənişini (depozit) elədiyi zaman qüvvəyə minir. Bu barədə maddə 3.1 nəzərə alınmalıdır.
**2.3** Müraciət tarixi, kursun başlanğıc tarixindən 14 gün sonradırsa, kurs müdavimi siniflərin və yaşayış yerinin uyğunluğunu dəqiqləşdirmək üçün, hispaniya.com ilə danışıqlar aparmalıdır.

**Maddə 3: Ödəniş**

**3.1** Müraciət formunu imzaladığı zaman, kurs müdavimi depozit – ilkin ödənişi də gerçəkləşdirməlidir.
**3.2** İlkin Ödəniş – Depozit deyildikdə, Toplam Xərcin 10%-i nəzərdə tutulur.
**3.3** İlkin ödəniş – depozit 100 (€) avrodan az olmamalıdır. Yəni, istənilən halda, ilkin ödəniş minimum 100 (€) olacaq.
**3.4** İlkin qeydiyyat tamamlandıqdan sonra, kurs müdavimi təhsil xərclərinin tamamını o cümlədən, əgər varsa, ev kirası, aeroportda qarşılanmaq xərclərini də ödəməlidir.
**3.5** Xərclərin tamamı, viza müraciətindən əvvəl ödənilməlidir.

**Maddə 4: Xərclərin Tamamı**

**4.1** Tamamı deyildikdə, toplam xərc nəzərdə tutulur və bu xərclərə təhsil, ev kirası və seçilmiş digər xidmətlərin ödənişləri nəzərdə tutulur.
**4.2** Əksi vurğulanmadığı müddətcə, toplam xərclər yalnız bir şəxs üçün hesablanır.
**4.3** Xərclərin tamamı ödənildiyində, kurs müdaviminə təhsil mərkəzindən qəbul məktubu göndərilir.

**Maddə 5: Dil Kursu, Yaşayış yeri və Fəaliyyət Proqramı**

**5.1** Əksi vurğulanmadığı müddətcə, kursun ilk günü bazar ertəsi, son günü isə cümə günüdür.
**5.2** İspaniyadakı rəsmi tətil günlərində dərslər olmayacaq. Dil kursu, hansı rəsmi tətil günündə dərslərin ləğv edildiyini bildirəcəkdir. Rəsmi tətil günlərinə düşən dərs saatlarının bərpası olmayacaq, lakin kurs bu qərarını dəyişmək haqqına malikdir.
**5.3** Eyni bilik səviyyəsindəki qrupda tələbələrin sayı 2 və daha az olarsa, dil kursunun dərs saatlarını azaltmaq haqqı mövcuddur.
5.4 Dil kursunun dərs saatlarını təyin etmə haqqı vardır.
**5.5** Kursa ödənilən xərclərə dərs ləvazimatları, imtahan ödənişləri, fəaliyyət və ekskursiya xərcləri daxil deyil.

**5.6** Əksi vurğulanmadıqca, kiralanan yerə giriş günün Bazar günü olub, çıxış günü Şənbə günüdür. Saat 22.00-dan sonra gələn tələbələrin yaşayış yerinə girişi mümkün olmaya bilər, və ya əlavə xərc tələb edilə bilər.
**5.7** Əlavə gecələr üçün əlavə ödənişlər etmək lazım olacaq. Ayrıca, əlavə gecələmək üçün yaşayış yerinin buna uyğun olması lazımdır.
**5.8** Tələbə, yaşadığı evin təlimatnaməsinə və qayda-qanunlarına riayət etməlidir. Bəzən qaydalar, evə qonaq dəvət etməmək səviyyəsində də ola bilər. Tələbə, ortaq yasamın tələblərinə hörmət etməlidir.
**5.9** Kursun təşkil edəcəyi ekskursiya və fəaliyyətlər fəsildən və hava şəraitindən asılı olaraq dəyişkənlik göstərə bilər.

**Maddə 6: Sənədlər**
**6.1** Tələbə viza almaq, xaricə çıxmaq və orada yaşaya bilmək üçün sənədlərini hazırlamalı.
**6.2** Viza təmin etmək üçün Səfirliyin tələb edəcəyi Qəbul Məktubunu almaq üçün, tələbə xərclərin tamamını ödəməlidir. Bu məktubun təcili poçt servisi ilə göndərilməsinə ehtiyac yaranarsa, kurs müdavimindən əlavə xərc tələb oluna bilər.
**6.3** Tələbə, qəbul məktubunun, viza alınmasının müəyyən vaxt tələb etdiyini nəzərə almalıdır.
6.4
6.4a Hispaniya.com viza tələbinin rəddi barədə rəsmi məktubu, gəliş tarixindən 20 gün əvvəl almalıdır. Əgər kurs müdavimi yaşayış yeri kiralamayıbsa, dərslərin başladığı gün gəliş tarixi olaraq qəbul olunur.
6.4b. Hispaniya.com səfirlikdən və ya konsulluqdan verilən viza tələbinin rəddi barədə məktubun bir nüsxəsini alır.

**Maddə 7: Səyahət Məlumatları**
**7.1** İlkin qeydiyyatın tamamlanaraq, təsdiqlənməsindən sonra, kursant səyahəti haqqında məlumatı dəqiqləşdirərək, hispaniya.com-a bildirməlidir.
**7.2** Kursant təyyarə uçuş tarixi və saatı haqqında, səyahətə başlamazdan ən gec 7 gün əvvəl təşkilatçını məlumatlandırmalıdır. Əks təqdirdə, aeroportda qarşılama servisində yaşanacaq problemlərdən, təşkilatçı və təminatçı məsuliyyət daşımır.
**7.3** Kursant sağlamlıq sığortası, səyahət sığortası o cümlədən şəxsi əşyaları barədə özü məsuliyyət daşıyır.

**Maddə 8: Kurs Müdavimi tərəfindən anlaşmanın ləğvi və dəyişdirilməsi**
**8.1** Kurs müdaviminin **yazılı və şifahi** müraciəti əsasında anlaşma ləğv edilir. Anlaşmanın ləğvi tarixi müraciət günündən etibarən başlayır.
**8.2** Kurs müdaviminin müraciət əsasında anlaşma ləğv edilərkən, aşağıdakılar tətbiq edilir:
**8.2a** Kursun başlanğıc tarixindən 28 gün əvvələ qədər olunan ləğv müraciətləri zaman, ilkin ödəniş – depozit xaric (Toplam Xərcin 10%-i), ödənilmiş digər bütün xərclər – kurs xərcləri, yaşayış yeri kirası, aeroportda qarşılama kimi xidmətlərin xərci geri qaytarılır.
**8.2b** Kursun başlamağına 28 gündən 14 gün qalana qədər olan müddətdə, ləğv üçün müraciət olunarsa, depozit və 1 həftəlik kira xərci xaric qalan bütün xərclər ödənir.
**8.2c** Kursun başlamasına 14 gün və daha az müddət qaldıqda edilən ləğv müraciətləri zamanı, depozit xərci xaric (Toplam Xərcin 10%-i), təhsil haqqının, kira ödənişi vs xərclərin 50%-i geri qaytarılır.
**8.2d** Gəliş tarixi və ya sonrasında edilən müraciət ləğvləri zamanı heç bir ödəniş olunmur.
**8.2e** Bəzi şəhərlərdə, ödənişi qaytarılmayan qeydiyyatların gələcəkdə icrası mümkün ola bilər.
**8.3** Kurs müdaviminin **yazılı və şifahi müraciəti** əsasında dərs tarixləri aşağıdakı şərtlərlə dəyişdirilir:
**8.3a** Kursun başlama tarixindən 28 gün əvvəl olunan müraciətlərdə, uyğunluq prinsipi nəzərə alınaraq, dəyişiklik edilir.
**8.3b** Kursun başlama tarixinə 28 gündən daha az müddət qaldıqda isə, əksərən mümkün olmasa da, uyğunluq olarsa, əlavə olara 60 (€) avro qarşılığında dəyişiklik edilir.
**8.3c** Dəyişiklik yalnız hispaniya.com tərəfindən təsdiqləndiyi zaman məqbul sayılıb, Maddə 4-dəki şəkildə toplam xərclər ödənildikdən sonra aparıla bilər.
**8.3d** Dəyişiklik aparıldıqdan sonra, kursun başlamağına 14 gün və daha az müddət qaldığı zaman olası ləğv müraciətində, ilkin müraciətdəki gəliş tarixi əsas götürülür.
**8.4** Tələbənin havayolu şirkəti vs. kimi üçüncü tərəflərin ucbatından meydana gələcək gecikmələri əsas gətirərək dəyişim tələb etmə haqqı yoxdur.

Bu anlaşmanı öz imzası ilə təsdiqləyən tərəflər anlaşmanı oxumuş hesab edilir.